**UOT 336.2**

***Zeynəb Həbibağa qızı QİYASOVA***
***Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı***

# AZƏRBAYCANDA İNNOVASİYALI İNKİŞAF VƏ AQRAR SAHİBKARLIĞIN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Xülasə***

***Tədqiqatın məqsədi* -** innovasiya fəaliyyətinin inkişaf göstəricilərinin təhlilini, innovasiyanın makroiqtisadi göstəricilərlə qarşılıqlı əlaqəli şəkildə öyrənilməsini tədqiq etmək.

***Tədqiqatın metodologiyası*** - sistemli yanaşma, statistik və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur.

***Tədqiqatın nəticələri*** – Azərbaycan Respublikasında innovasiya yönümlü inkişafın yeri və rolu təyin edilmişdir.

***Tədqiqatın praktiki əhəmiyyəti*** – tədqiqatın nəticələrinə əsasən bir sıra makroiqtisadi göstəricilərdə baş verən dəyişmələrdən istifadə etməklə innovativ inkişafın təhlil olunması həyata keçirilə bilər. Digər tərəfdən əldə olunmuş nəticələrdən istifadə etməklə innovasiya yönümlü fəaliyyətin iqtisadi sistemin bütün sahələrində yarada biləcəyi potensial inkişaf meyillərini tədqiq etmək mümkündür.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** – Azərbaycanda statistik və empirik metodlardan istifadə etməklə innovativ inkişafla əlaqədar bir sıra göstəricilər qiymətləndirilmiş, nəticələrin interpretasiya olunması üçün təkliflər irəli sürülmüşdür.

***Açar sözlər: investisiya yönümlü büdcə xərcləri, innovativ inkişaf, innovativ aqrar sahibkarlıq.***

## *Giriş*

İnnovasiya siyasəti cəmiyyətin inkişafında, rəqabətqabiliyyətli istehsal prosesinə təkan verməkdə, əlverişli kommunikasiyanın qurulmasında, insanların həyat səviyyəsinin yüksəlməsində, həm də dövlətin iqtisadi inkişafının sürətlənməsində geniş rol oynayır. Ölkəmiz neftlə zəngin olduğundan bu sahədən əldə edilən gəlirlər digər sahələrin, xüsusilə aqrar sahənin intensiv inkişafını təmin etməyə yönəldilir. İnnovasiya texnologiyalarına əsaslanan subyektlərin yaradılması respublikada yerli məhsulların rəqabətqabiliyyətliliyini artırır, istehsal olunan məhsulların beynəlxalq bazara çıxarılmasına səbəb olur. Öz növbəsində isə istehsal prosesində yeni texnika və texnologiyaların tətbiqi əl əməyinə və vaxta qənaət etməklə ÜDM-in artımına ciddi təsir göstərir. Müasir iqtisadi şəraitdə ölkəmizdə xüsusi aktuallığa malik olan innovasiyalı inkişafın təmin olunmasına və aqrar sahibkarlığın təkmilləşdirilməsinə böyük zərurət yaranmışdır.

İndiki iqtisadi münasibətlər şəraitində ölkəmizdə innovasiyalı inkişafın təmin olunmasına və aqrar sahibkarlığın təkmilləşdirilməsinə dair araşdırmalar aparılmaqdadır. Bununla yanaşı innovasiya fəaliyyətinin inkişaf göstəricilərinin təhlilini, innovasiyanın makroiqtisadi göstəricilərlə qarşılıqlı əlaqəli şəkildə öyrənilməsini tədqiq etmək əsas məqsədimizdir.Bu məqsədə nail olmaq üçün məqalənin hazırlanmasında sistemli yanaşmadan, o cümlədən statistik və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Araşdırmalarımız nəticəsində ölkəmizdə innovasiya yönümlü inkişafın yeri və rolu təyin edilmişdir. Araşdırmalarımızın nəticələrinə əsasən bir sıra makroiqtisadi göstəricilərdə baş verən dəyişmələrdən istifadə etməklə innovativ inkişafın təhlil olunması həyata keçirilə bilər. Digər tərəfdən əldə olunmuş nəticələrdən istifadə etməklə innovasiya yönümlü fəaliyyətin iqtisadi sistemin bütün sahələrində yarada biləcəyi potensial inkişaf meyillərini tədqiq etmək mümkündür.

**Dövlətin innovasiya siyasəti və ölkəmizdə innovasiyaya mane olan amillər**

İnnovasiya siyasətinin əsas məqsədi innovasiya fəaliyyətini təşviq etmək, bu istiqamətdə bütün zəruri addımları atmaq, yerli sahibkarlara müasir texnologiya və texnoloji avadanlıqların əldə olunmasında yardım göstərmək, onların transferini təşkil etmək, innovasiyaya əsaslanan elmi

tədqiqatları dəstəkləmək, innovativ layihələri, o cümlədən startapların maliyyə mexanizmlərini stimullaşdırmaq, onları qrant, güzəştli kredit və vençur vasitəsilə maliyyələşdirməkdir. Eyni zamanda İKT sektorunun davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması, yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasıdır.

İnnovativ fəaliyyətin səviyyəsini ölçmək üçün seçilən göstəricilər dünya təcrübəsinə əsaslanaraq aşağıdakı kimi xarakterizə olunur [2, 3, 10, 11]:

1) yenilikçi məhsulların həcmi
2) texnoloji yeniliyin dəyəri
3) əsas fondların dəyəri
4) əsas fondlara yatırımlar
5) aktiv patentlərin sayı

Dövlətin innovasiya siyasətinin əsas istiqamətləri innovasiya və daxili investisiyanın təşviqindən ibarətdir (şəkil 1).

| | |
|---|---|
| **İnnovasiya siyasəti** | ▪ ***Korporativ tədqiqat və inkişafa (bundan sonra T-İ) maliyyə və maliyyə təşviqləri***<br>▪ ***İnsan kapitalının inkişafı və xarici istedadların cəlb edilməsi***<br>▪ ***Tədqiqat infrastrukturunu inkişaf etdirmək, əməkdaşlığı təşviq etməkvə əlaqələr qurmaq***<br>▪ ***Əqli mülkiyyət hüquqları rejimini təkmilləşdirmək*** |
| **Daxili investisiya təşviqi** | ▪ ***T-İ xərclərini artırmağa yönəlik xarici investisiyaların, vençur kapitalının cəlbi və ölkənin imicini yaxşılaşdırmaq***<br>▪ ***T-İ-yə xas investisiya və tətbiqetmə xidmətləri baxımdan sonrakı xidmətləri təyin etmək***<br>▪ ***Siyasətin işləkliyi*** |

***Şəkil 1. Dövlətin innovasiya siyasətinin əsas istiqamətləri.***

*(sxem tərəfimizdən araşdırmalara istinadən hazırlanmışdır)*

Azərbaycan Respublikasında yeniliklərin inkişafı probleminin vacibliyini nəzərə alaraq, maliyyə alətləri vasitəsi ilə onların stimullaşdırılması imkanlarını hərtərəfli nəzərdən keçirməliyik.Bu səbəblər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən ölkədəki əsas innovativ müəssisələrdə aparılmış anket sorğusunun nəticələri formasında aşağıdakı şəkil 2-dəki kimi tərtib olunmuşdur.Ölkəmizin sənaye müəssisələrində son 5 ildə innovasiyaya mane olan amilləri şəkildəki kimi dəyərləndirən əsas innovativ müəssisələrin sayı göstərilmişdir.

Şəkil 2-dən də göründüyü kimi, innovasiyaya mane olan əsas səbəblərdən biri müəssisənin innovasiya fəaliyyətini yaxşılaşdırması üçün öz pul vəsaitinin kifayət qədər olmamasıdır. Məhz bu səbəbdən müəssisələrin tədqiqat və inkişaf (T-İ) xərclərinə maliyyə yatırımı aşağıdır. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, o cümlədən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar və Maliyyə Nazirliklərinin məlumatlarına, həmçinin qlobal dünya iqtisadiyyatı portalının Dünya Bankının təqdim etdiyi datalar əsasında açıqladığı rəqəmlərə diqqət yetirək [4, 5, 7, 9]:

Şəkil 3-dən aydın görünür ki, ölkəmizdə illər ərzində T-İ xərclərinin dinamikasının mənfi meyilliyi baş vermişdir. Belə ki, 1996-cı ildə ölkədəki şirkətlər tərəfindən araşdırma və inkişaf məqsədilə ayrılan xərclər ümumi xərclərin 0.24 faizini təşkil edirdisə, 2000-ci ildə bu göstərici nəzərə çarpacaq dərəcədə artmış və müvafiq olaraq ümumi xərclərin 0.34 faizini təşkil etmişdir [6]. Lakin

İllər ərzində bu göstəricidə azalmalar müşahidə olunmuşdur. Hesab edirik ki, bu, neft iqtisadiyyatının inkişafının “Holland sindromu” effekti yaratması ilə əlaqədardır. Bu zaman müşayiət olunan qeyri-neft sektorunun payının azalması mikroiqtisadiyyatda daha çox idxal nəticəsində formalaşan istehsal prosesində araşdırma və inkişaf xərclərinə tələbatın da azalmasına təsir göstərmişdir. Lakin son dövrlərdən etibarən post-neft dövrünün praktiki olaraq başladılması mikroiqtisadiyyatda araşdırma və inkişaf xərclərinə tələbatın genişlənməsinə səbəb olacaqdır.




***Şəkil 2. İnnovasiyaya mane olan amilləri dəyərləndirən əsas innovativ müəssisələrin sayı. [8]***

*(Diaqram tərəfimizdən AR DSK-nın məlumatlarına əsasən hazırlanmışdır)*




***Şəkil 3. Azərbaycan Respublikasında T-İ (Tədqiqat və inkişaf) xərclərinin vəziyyəti.***

**Azərbaycan Respublikasında innovasiya növlərinə görə çəkilən xərclərin və göstəricilərin müasir vəziyyəti**

Ölkəmizdə innovasiya fəaliyyəti ilə məşğul olan təşkilatların dinamikasının təhlili göstərir ki, texnoloji yeniliyin stimullaşdırılmasına yönəlmiş vergi güzəştləri, mexaniki baxımdan əsasən böyük biznes müəssisələrində istifadə edilə bilir. Statistik araşdırmalar zamanı həmçinin məlum olmuşdur ki, kiçik sahibkarlıq müəssisələrində yalnız 2%, orta və iri sahibkarlıq müəssisələrində isə70-80% texnoloji yenilik həyata keçirilir.

Onların həqiqi tətbiqinin təhlili son dərəcə aşağı tələbi və ölkədə innovasiyanın inkişafına hər hansı bir təsir göstərə bilməməyi göstərir.




***Şəkil 4. Ölkəmizdə innovasiya növlərinə görə çəkilən xərclər.***

*(Diaqram tərəfimizdən AR DSK-nın məlumatlarına əsasən hazırlanmışdır)*

Şəkil 4-dən göründüyü kimi illər ərzində ölkəmizdə proses innovasiyasında azalma meyli müşahidə olunsa da, məhsul innovasiyasında artım müşahidə olunur. Bu, innovativ inkişaf indeksini yüksəltmək üçün səmərəli göstərici hesab olunur. Çünki məhz ölkəmizdə proses innovasiyası idxal fəaliyyəti nəticəsində əldə olunduğuna görə kapitalın xaricə axınına səbəb olur və innovasiya fəaliyyətinin ÜDM-də gəlir artımı göstəricisini azaldır, lakin məhsul innovasiyası yerli istehsalın inkişafının, elm xərclərinin yüksəlməsinin, aktiv patent və əqli mülkiyyətin inkişafının səbəbi ola bilər.

Ölkədə innovasiyanın dərəcəsinin ölçülməsi dünya təcrübəsinə əsaslanaraq hazırda 5 əsas göstərici əsasında hesablanır [11]:

1) Tədqiqat və inkişaf xərcləri (bilik ehtiyatını artırmaq və bu biliklərdən yeni tətbiqetmələr hazırlamaq üçün sistematik şəkildə həyata keçirilən yaradıcılıq işlərinə sərf olunan pullardır.);

2) İnformasiya texnologiyaları ixracatı;

3) Yüksək texnologiya ixracatı;

4) Yüksək texnologiyalar ixracatı, (ümumi istehsal ixracatının tərkibindəki faizi);

5) Patent müraciətləri.

Bu göstəricilər üzrə ölkəmizdə son 5 ildə mövcud dinamika aşağıdakı kimidir:

Tədqiqat və inkişaf xərcləri

T-İ xərcləri üzrə 2019-cu ilin Azərbaycan üzrə nəticələri hələ ki, elan olunmamışdır.Həmçinin ölkə üzrə patent müraciətlərinin sayı 2016-cı ildə 144, 2017-ci ildə 204, 2018-ci ildə 155 olmuşdur.

Elm, texnologiya və innovasiya siyasətinin bir hissəsi kimi fiskal stimullar getdikcə daha çevik şəkildə tətbiq olunaraq geniş hədəf spektrinə çatmaq üçün həm də inzibati yolla istifadəsinə nəzarəti həyata keçirməyi zəruri edir.




***Şəkil 5. Ölkəmizdə innovasiya göstəriciləri rəqəmlərdə. [9]***

*(Diaqram tərəfimizdən Qlobal Dünya İqtisadiyyatı beynəlxalq portalının məlumatlarına əsasən hazırlanmışdır)*

**Aqrar sahədə innovasiyalı inkişafın həyata keçirilməsi istiqamətləri**

Azərbaycanda və regionda iqtisadi güzəştlər, biznes xidmətləri və qabaqcıl avadanlıqlardan təşkil olunmuş əlverişli şəraitin hesabına yüksək texnologiya iqtisadiyyatını inkişaf etdirməklə ölkədə fəaliyyət göstərən startap layihələrinin müəlliflərinin daxili və xarici mənbələr hesabına investisiya təminatına dəstək vermək mümkündür.Fiskal siyasət iqtisadiyyatın maliyyə tənzimlənməsi üsulu olaraq vergitutma və dövlət xərcləri kimi vacib rıçaqları özündə saxladığı üçün innovasiya siyasətinin həyata keçirilməsində son dərəcə mühümdür:

- elmi müəssisələrin qapalı xarakteri, yəni onların perspektiv layihə və işləmələri barədə cəmiyyətdə informasiyaların azlığı;
- vençur sahibkarları üçün qəbul edilən riski təmin edən yüksək texnoloji sektorun müəssisələrinə birbaşa investisiyaların cəlb olunması üçün iqtisadi stimulların olmaması;
- kiçik və orta sahibkarlıq sahəsində vençur biznesinin nüfuzunun aşağı olması;
- vençur kapitalı ilə innovasiya biznesinin qarşılıqlı effektiv əməkdaşlığını təmin edən infrastrukturun zəif inkişaf etməsi;
- respublikada vençur kapitalı mənbələrinin sayının az olması;
- riskli kapital qoyuluşu fəaliyyətinin zəifliyi və bunun üçün lazımi bazar mexanizmlərinin olmaması;
- kiçik bilik tutumlu biznes sferasında kommersiya fəaliyyətinin aşağı olması;
- innovasiya layihələrinin idarə edilməsi üzrə ixtisaslı menecerlərin sayının kifayətedici səviyyədə olmaması və s. [9].

Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

• Azad rəqabət mühitinin inkişaf etdirilməsi;
• Səmərəli vergi sisteminin təşviq edilməsi;
• Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyinin artırılması;
• Azad ticarət sazişlərinin bağlanması (lojistik nailiyyət indeksi);
• Texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi.

**Ölkəmizdə innovasiyalı inkişafın GZİT təhlili və aqrar sahibkarlığın təkmilləşdirilməsi**

Azərbaycanda innovasiya fəallığının formalaşdırılmasında mühüm şərtlərdən biri innovasiya sahibkarlığının maliyyələşdirilməsi işinin təşkili zamanı beynəlxalq standartlara uyğun səmərəli investisiyalaşdırma formalarının seçilməsi və təcrübədə effektiv tətbiqi hesab edilir. Məhz bu səbəbdən müvafiq istiqamətdə dövlət iqtisadi siyasətini müəyyənləşdirərkən həmin maliyyələşdirmə

formalarının innovasiya fəallığına təsir göstərməsi baxımından üstünlüyü əsaslandırılmalı, onların respublikada tətbiq edilməsi imkanları aşkar olunmalıdır. Səmərəli innovasiya siyasəti keyfiyyətli dövlət idarəetmə strukturu və təkmilləşmiş biznes mühiti islahatlarını tələb edir. İqtisadi artımın tempinin aşağı düşdüyü dövrdə xüsusilə texnologiya transferi və bəzi seçilmiş sahələrdə T-İ xərclərini stimullaşdıran tədbirlərə ehtiyac yaranır. Bunun üçün innovasiyalı inkişafın GZİT təhlili həyata keçirilir (şəkil 6).

| GÜCLÜ TƏRƏFLƏR | ZƏİF TƏRƏFLƏR |
|---|---|
| **Strengths**<br>- İKT infrastrukturunun inkişafı<br>- İnnovasiya klasterləri texnoloji parklar<br>- Gənc əhalinin sayca çox olması | **Weakness**<br>- Vençur kapital yetərsizliyi<br>- Ali məktəblərdə texnoloji ixtisaslar üzrə kadr yetərsizliyi<br>- Yüksək texnologiya istehsal edən sahibkarlıq müəssisələrinin olmaması<br>- Startap inkubatorlarının davamlı dəstək verə bilməməsi |
| **İMKANLAR** | **TƏRƏDDÜDLƏR** |
| **Opportunity**<br>- Dövlət dəstəyi<br>- ASAN Xidmət strukturunun mövcudluğu və İnnoland inkişaf mərkəzi<br>- İPR (İntellectual property Rights - Əqli mülkiyyət hüququ) menecmenti və agentliyinin mövcudluğu<br>- KOBIA agentliyinin mövcudluğu<br>- Texnologiya parklarına tətbiq olunmuş vergi güzəştləri<br>- Yeni xarici bazarlar<br>- Yeni nəqliyyat dəhlizləri | **Threats**<br>- Pandemiya sonrası iqtisadi böhran<br>- Ali məktəblərlə sənaye sektorunun əlaqələrinin qurula bilməməsi |

***Şəkil 6. İnnovasiyalı inkişafın GZİT təhlili.***

Tədqiqat işində həmçinin ölkəmizdə innovasiyalı iqtisadiyyatın fiskal infrastrukturunun qurulmasının, qeyri-neft iqtisadiyyatının, eləcə də aqrar sektorun inkişafına dəstək mexanizmləri araşdırılmışdır. Belə ki, ölkədə əlverişli aqrobiznes mühitinin formalaşdırılması üçün strateji yol xəritələrinin prioritetləri çərçivəsində Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini genişləndirmək, habelə biznes və investisiya mühitinin əlverişliliyinin və rəqabət qabiliyyətinin artırılması mühüm əhəmiyyət kəsb edir. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanına uyğun olaraq Dövlət Gömrük Komitəsi tərəfindən “Yaşıl dəhliz” və digər buraxılış sistemlərinin tətbiqi ilə əlaqədar müvafiq infrastruktur yaradılmışdır. 2016-cı il 1avqust tarixindən etibarən sahibkarlar “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə etmək imkanı qazanmışlar. Azərbaycan Respublikası Prezidentinin “2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında” 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılmasının təmin edilməsi istiqamətində mühüm addım atılmışdır. Əlverişli aqrobiznes mühitinin formalaşdırılması prioriteti çərçivəsində kənd təsərrüfatı və ərzaq məhsulları bazarında, tədarük prosesində haqsız rəqabət meyillərinin qarşısının alınması məqsədi ilə tədbirlərin gücləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün əlverişli

ticarət mühitinin formalaşdırılması sahəsində işlərin genişləndirilməsinə ehtiyac hiss olunur.Eyni zamanda, aqrar emal sahəsində antiinhisar nəzarətinin gücləndirilməsi, aqrar sahədə lisenziyalaşma və icazələrin verilməsi istiqamətində təkmilləşdirmə işinin davam etdirilməsi böyük əhəmiyyətə malikdir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün vergi sistemində aqrar emal sahəsində investisiya mühitinin yaxşılaşdırılmasına xidmət edən dəyişikliklərin tətbiqi, aqrobiznes sektoru üçün birbaşa xarici investisiyaların təşviqi ilə bağlı fəaliyyətin dərinləşdirilməsi aqrar sahədə innovasiyaların təşviqinə ciddi töhfə verə bilir. Aqrar sahədə lisenziyalaşma və icazələrin verilməsinin təkmilləşdirilməsi, sertifikatların verilməsinin sadələşdirilməsi, istehsal olunan məhsulun sertifikatlaşdırılmasını “ABAD” mərkəzləri “bir pəncərə” prinsipi əsasında, sadələşdirilmiş qaydada təşkil edəcəkdir. Ailə təsərrüfatları, kiçik və orta sahibkarların yaradılan bu imkandan maksimum faydalanmaları üçün maarifləndirmə işi aparılacaqdır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən biznes subyektlərinin bazara çıxışı, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yarada biləcək halların başvermə risklərinin azaldılması, qarşısının alınması və qabaqlayıcı tədbirlər sisteminin həyata keçirilməsini təmin etmək üçün adıçəkilən hallar üzrə kompleks yoxlamaları özündə birləşdirən riskəsaslı yoxlama sisteminin qurulması imkanları nəzərdən keçiriləcəkdir [1].

## *Nəticə*

İnnovasiya fəallığının formalaşdırılmasında mühüm şərtlərdən biri innovativ sahibkarlığın maliyyələşdirilməsi işinin təşkili zamanı beynəlxalq standartlara uyğun səmərəli investisiyalaşdırma formalarının seçilməsi və təcrübədə effektiv tətbiqidir. Məhz bu səbəbdən müvafiq istiqamətdə dövlət iqtisadi siyasətini müəyyənləşdirərkən həmin maliyyələşdirmə formalarının innovasiya fəallığına təsir göstərməsi baxımından üstünlüyü əsaslandırılmalı, onların respublikada tətbiq edilməsi imkanları aşkar olunmalıdır. Səmərəli innovasiya siyasəti keyfiyyətli dövlət idarəetmə strukturu və təkmilləşmiş biznes mühiti islahatlarını tələb edir.

Qeyri - neft iqtisadiyyatı, eləcə də aqrar sahibkarlığın dayanıqlı və innovasiyalı fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin mühüm istiqamətləri kimi aqroparklara yaxın ərazilərdə innovasiyalı kənd təsərrüfatı məhsulları istehsalı və emalı, məşğulluğun yüksəldilməsi, kənd təsərrüfatı sahəsinə investisiya cəlbediciliyinin təmini, innovasiyalı sahibkarlığın institusional və kadr təminatının gücləndirilməsi, rəqabət qabiliyyətli məhsul buraxılışı və yeni istehsalın yaradılması, elmi nailiyyətlərin yaradılmasına xidmət edən ixtisaslaşdırılmış strukturların qurulması və səmərəli fəaliyyətinin təşkil edilməsi, sahibkarlıq subyektlərinin ən perspektivli idarəetmə mexanizminin formalaşdırılması, yeni məhsulun xarici bazarlara çıxarılmasının təşviqi məsələləri xüsusi əhəmiyyət daşıyır. İstehsal güclərinin sahibkarlıq subyektlərinin ödəniş qabiliyyətinin artırılmasının, çoxmeyarlılıq tələblərinə cavab verən restrukturlaşdırma, müflisləşmə və maliyyə sağlamlaşdırılması mexanizminin əlyetənliyinin təmin edilməsi məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi.
2. Aliyev E., Kerimova T., Hajiyev G. Evalution security in the Region Within the Framework of the FAO UN Cooperation Program Using the Fuzzy Interence // 13th International Conference on Theory and Application of Fuzzy Systems Soft Computing-ICAFS-2018. pp.609-618
3. Guimón J. Government strategies to attract R&D-intensive FDI //The Journal of Technology Transfer. – 2009. – T. 34. – №. 4. – p. 364-379.
4. https://economy.gov.az/ İqtisadiyyat Nazirliyinin rəsmi saytı
5. https://mincom.gov.az/az/view/organization/16/ - Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmi saytı
6. https://www.agro.gov.az/az Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytı
7. http://www.maliyye.gov.az/ Maliyyə Nazirliyinin rəsmi saytı

8. https://www.stat.gov.az/ Dövlət Statistika Komitəsinin rəsmi saytı
9. https://www.theglobaleconomy.com/
10. Mani S. Financing of innovation-a survey of various institutional mechanisms in Malaysia and Singapore. Asian Journal of Technology Innovation, 2004. vol. 12. №. 2. p. 185-208.
11. Rzayev R., Aliyeva S., Hajiyev G., and Karimova T. Assessment the Attractiveness of Countries for Investment by Expert Knowledge Compilation / Assessment the Attractiveness of Countries for Investment, pp. 331–339, 2020

***Zeynab Habibagha Giyasova***
***PhD student in economics, Azerbaijan State Economic University***

## Innovative Development And Agricultural Entrepreneurship In Azerbaijan

***Summary***

Purpose–to study the analysis of development indicators of innovation activity, the study of the interaction of innovation with macroeconomic indicators.

Design / methodology - systematic approach, statistical and comparative analysis methods were used.

Findings - the place and role of innovation-oriented development in the Republic of Azerbaijan.

Research limitations- based on the results of the research, the analysis of innovative development can be carried out using changes in a number of macroeconomic indicators.

Practical implications - it is possible to study the potential development trends that innovation-oriented activities can create in all areas of the economic system.

Originality value- A number of indicators related to innovative development in Azerbaijan using statistical and empirical methods were evaluated, and suggestions were made for the interpretation of the results.

***Keywords: investment-oriented budget expenditures, innovative development, innovative agrarian entrepreneurship***

***Зейнаб Габибага кызы Гиясова***
***докторант, Азербайджанский Государственный Экономический Университет***

## Инновационное развитие и сельское предпринимательство в Азербайджане

***Резюме***

Цель исследования - анализ показателей развития инновационной деятельности, изучение взаимодействия инноваций с макроэкономическими показателями.

Методология исследования - системный подход, использованы методы статистического и сравнительного анализа.

Результаты исследования - место и роль инновационного развития в Азербайджанской Республике.

Практическая значимость исследования - по результатам исследования анализ инновационного развития может быть проведен с использованием изменения ряда макроэкономических показателей. С другой стороны, используя полученные результаты, можно изучить потенциальные тенденции развития, которые инновационно-ориентированная деятельность может создать во всех сферах экономической системы.

Оригинальность и научная новизна исследования - Был оценен ряд показателей, связанных с инновационным развитием в Азербайджане с использованием статистических и эмпирических методов, и были внесены предложения по интерпретации результатов.

***Ключевые слова: инвестиционные расходы бюджета, инновационное развитие, инновационное аграрное предпринимательство.***